*Azad NƏBİYEV*
*Bakı Dövlət Universiteti*

# OXŞAR MƏDƏNİYYƏTLƏR QOVŞAĞINDA

Dünya xalqları folklorundakı süjet oxşarlığı, yaxud şifahi yaradıcılığa məxsus oxşarlıq və qohumluq problemi XIX yüzilliyin başlanğıcından folklor nəzəri fikrinin diqqət mərkəzində olmuşdur. Görkəmli antropoloqlar, etnoqraf, psixoloq, linqvist və teoloqlar xalqların zəngin dil, tarix, folklor və etnoqrafik materiallarını toplayıb nəşr edərək müxtəlif istiqamətli tədqiqatlara cəlb etmişlər. Həmin araşdırmalar zamanı xalqların folklorundakı süjet oxşarlığı, onun tarixi, mənşəyi, dünyaya yayılma yolları və vasitələrindən bəhs edən müxtəlif nəzəri müddəalar irəli sürülmüş, bir-birlərini təkzib edən nəzəriyyələr yaranmışdır. Bunlar həm Qərbdə, həm də Şərqdə yaşayan xalqların folklorunun geniş ölçülərdə, müxtəlif istiqamətlərdə toplanılıb nəşr edilməsində və tədqiqatlara cəlb olunmasında mühüm rol oynamışdır. Amma irəli sürülən nəzəriyyələrin heç biri oxşarlıq və eyniliklərin mənşəyi ilə bağlı qəti fikrə gələ bilməmiş, bir-birini təkzib etməklə, sivilizasiyaya məxsus oxşarlıqlara müxtəlif yanaşma metodologiyası formalaşdırmışlar. Bu isə mədəniyyətlərin oxşarlıq və bənzərliklərini öyrənməyə yönələn nəzəri baxışların tükənmədiyini, hələ yeni-yeni nəzəri məktəblərin yaranıb formalaşma imkanlarının reallığını əks etdirməkdədir.

Oxşar mədəniyyətlərin mənşəyini öyrənmək sahəsində son illərdə Azərbaycanda da bir sıra işlər görülmüşdür. Aparılan uzunmüddətli müşahidə və eksperimentlər dünya xalqları folklorunda eynilik və oxşarlıqların öyrənilməsini reallaşdıran yeni nəzəriyyənin - mədəniyyətlərdə oxşarlıq və bənzərliklərin gen mənşəyi ilə bağlılığı barədə nəzəri baxışın irəli sürülməsinə imkan vermişdir.

Nəzəri mülahizədə elmi arqumentlərə söykənməklə dünya xalqlarının şifahi yaradıcılığındakı süjet oxşarlıqları əsas götürülmüş, onlardakı bənzərliklərin tarixi gen birliyi ilə bağlı olma müddəası özünü təsdiqləmişdir. Tədqiqatlar zamanı o da müəyyən olunmuşdur ki, tarixən eyni mənşədən qaynaqlanan gen birliyi dünya xalqlarını müxtəlif antropoloji qruplara ayırdığı kimi, dünyanın yeni nizamı olan qloballaşma prosesində ayrılıqların yaxınlaşma və qovuşmasını tənzimləyir, dünya sivilizasiyasının qlobal modelini formalaşdırır, çarpazlaşma və qovuşma məxrəcində olan xalqların (həmçinin eyni etnik kökdən olan xalqların) mədəni-mənəvi, əxlaqi-estetik və etik dəyərlərinin bəşəri kökə – tarixi gen birliyinə bağlılığını açıqlamağa imkan verir. Yeni nəzəriyyə XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının mühüm elm mərkəzlərindən olan Bakı Dövlət Universitetində işlənib hazırlanmışdır.

Nəzəriyyənin ilkin praktiki eksperimentləri və başlıca müddəaları Azərbaycan, özbək, türkmən, türk, fars, Kıprıs türkləri folkloru materialı üzərində aparılmış, əldə edilmiş nəticələr nəzəriyyə müəllifinin son onilliklərdə çap edilmiş əsərlərində öz əksini tapmışdır.

İrəli sürülən nəzəriyyənin başlıca müddəaları 2002-2005-ci illərdə tədris eksperimentində sınaqdan çıxarılmış və iki minə yaxın respondenti əhatə etmişdir. Sınaq zamanı nəzəriyyənin başlıca müddəaları praktiki təcrübədə təsdiqini tapmışdır.

Nəzəriyyənin ekspertizası Bakı Dövlət Uiniversitetinin Folklor kafedrasında aparılmış və yeni nəzəri kəşf kimi qiymətləndirilərək nəşrə və yayıma tövsiyyə edilmişdir.

Dünya xalqlarının folklor yaradıcılığındakı oxşarlıq, eynilik və bənzərliyin xalqların tarixən mövcud mənşə birliyi, yaxud gen eyniliyi ilə bağlı öyrənilmə istiqamətini açıqlayan **geneoloji nəzəriyyə** yeni nəzəri baxışlar sistemidir.

Gen – yunan sözü olub, «genes» sözündən əmələ gəlmişdir. Mənası əsil, mənşə, kök məzmununu əhatə edir. Nəyinsə yaranma mənşəyini, məcrasını, məzmununu açıqlamağa xidmət edir. «Logiya» da yunan sözüdür, «elm», «öyrənən sahə» məzmununda başa düşülür. Bütövlükdə nəzəriyyənin adı geniş məna çalarlarına malikdir. Geneologiya – xalqların günümüz üçün sözün geniş mənasında mühüm əhəmiyyət kəsb edən gen mənşəyini, onun fərdi, ümumi cəhətlərini, törəmə formaları və funksiyalarını əhatə edir.

Geneoloji tədqiqatların öyrənilməsi və elmin müxtəlif sahələrində tətbiqi yeni problem deyildir. Bu istiqamətdə ilk mülahizə və tədqiqatlara Avropada təsadüf edilmişdir. Geneologiya elə həmin dövrdə nəsl qohumluğu şəcərəsini araşdıran istiqamət kimi tanınmışdır. Mənşənin, qohumluq əlaqələrinin tarixi qanunauyğunluqlar zəminində öyrənilməsi XVII və XVIII əsrlərdə Avropada geniş vüsət almışdır. Nəslin şəcərəsinin öyrənilməsi problemin daha dərin köklərə malik olduğunu göstərməklə xalqların tarixən vahid gen, mənşə eyniliyinə məxsus xüsusiyyətlərinin mövcudluğunu da təsdiqləyir, antropoloji tədqiqatların yeni istiqamətini açıqlayırdı. Bu elmi istiqamətin Fransada A.Dyuşen, P.Anselvin, İngiltərədə Dj.Daqdeyl, Almaniyada M.Şnener, Y.V.İmxaf, İ.Qatterer kimi nümayəndələri olmuşdur.

Mənşə və nəsil şəcərəsi ilə bağlı ilk informatik məlumatlar və mülki aktlar XV əsrdə artıq məlum idi. XVI əsrdə isə – 1555-ci ildə «Qosudaryev rodosloviye» əsəri çap edilmişdir (1, s.638). Rusiyada nəsil şəcərəsinin mənşə xüsusiyyətlərini öyrənən və ümumiləşdirən ilk tədqiqat işi M.M.Şərbətov tərəfindən 1857-ci ildə üzə çıxmışdır. Bu ənənə sonrakı yüzilliklərdə də davam etdirilmiş, qohumluq şəcərəsi ilə bağlı məlumatlar toplanıb çap olunmuşdur. (1,s.638).

Geneoloji baxımdan yanaşma metodologiyası XIX əsrin ikinci yarısından elmin müxtəlif sahələrinə tətbiq edilib yayılır, aparılan eksperimentlər bir sıra yeni və uğurlu nəticələrə aparıb çıxarırdı. Həmin gen, mənşə birliyi əsas gö-

türülməklə linqvistika sahəsində «Dillərin geneoloji təsnifi», biologiya sahəsində Danimarka alimi B.İohansenin bioloji irsiyyət, T.X.Morqanın irsiyyətlərin xromosom nəzəriyyələri meydana çıxmışdır (3, s.635).

Bu nəzəri mülahizələrdə valideyn əlamət və xassələrinin irsi vahidlər vasitəsilə nəsildən-nəslə pozulmaz, tam və bütöv halda keçməsi aşkarlandı.

XX yüzilliyin başlanğıcında artıq bütün tip – təbiət, insanat və heyvanat aləmini əhatə edən genlər tam bölünməz irsiyyət vahidi hesab edilirdi. 30-cu illərdə nəzəriyyə daha da inkişaf etdirildi. A.S.Serebrovski, N.P.Dubinin, İ.İ.Aqol genlərin müxtəlif sistemli, çoxpilləli mərkəzdən ibarət olduğunu müəyyən etdilər. Sonralar isə hər bir hissənin inkişaf xüsusiyyəti aşkarlandı. Amerikalı genetik S.Benzer genlərin çoxşaxəli, mürəkkəb və bölünməz xüsusiyyətə malik funksiyalarını açıqladı. Az sonra isə Amerika alimi C.Uotson və ingilis alimi F.Krik gen nəzəriyyəsinin yeni funksiyalarını müəyyən etdilər.

Genin nüvə quruluşunu müəyyən etməklə onun orqanizmin irsi xüsusiyyətlərini qeyri-müəyyən zaman kəsimində – daimi, fasiləsiz qoruyub saxlamaq funksiyasını aşkarladılar. Sonrakı illərdə Fransada Jakob və S.Mono genlərin struktur və tənzimləmə funksiyalarını müəyyənləşdirdilər. Bu isə onların etnik yaddaşda daimi yaşama və fasiləsiz ötürülmə funksiyalarına malik olduğunu təsdiqlədi.

Gen nəzəri müddəalarının əhatə çevrəsi çeşidlidir. Genetika və seleksiya, zoologiya, biologiya, mikrobiologiya, kimya, linqvistika və başqa elm sahələrində də mənşə xüsusiyyətlərinin öyrənilməsinə maraq getdikcə geniş intişar tapdı. Akademik N.Y.Marr linqvistika sahəsindəki mülahizələrini praktikaya tətbiq edə bilmədi. Sovet ideoloqları N.A.Marrı kəskin tənqid etdilər, gen nəzəriyyəsini burjua baxışı kimi yamanladılar. Sovetlər dönəmində nəzəriyyə bütövlükdə tənqid edildi. Ancaq gen mənşəyinin öyrənilməsi müxtəlif istiqamətlərdə davam etdirildi. Elmlərin bir neçə sahəsi üzrə diqqətəlayiq tapıntılar üzə çıxarıldı. Bitkilərin yaxın və qohum fəsilələri üzərində aparılan eksperimentlər təbiətdə mənşə birliyinin daha yeni xüsusiyyətlərini aşkarlamağa imkan verdi.

Genin mənşəyinin, kökünün öyrənilməsinə son onilliklərdə diqqətin artırılması bu sahədə aparılan axtarışların genişlənməsinə təkan verdiyi kimi, əldə edilən nəticələrin də miqyasını yüksəltdi. Ötən yüzilliklərdə mədəniyyətlərdəki oxşarlıqları öyrənən bir sıra nəzəriyyələrə diqqət artırıldı. Dünyanın müxtəlif qitələrində, ölkələrində yaşayan xalqların mədəniyyətlərindəki oxşarlıqlar qohumluq, mədəni-tarixi iqtibas, oxşar inikas düşüncəsi, səyyar transilə, oxşarlıqların tarixi qaynaqlardan bəhrələnmə müddəaları müxtəlif tədqiqatlara yenidən cəlb edildi.

Folklorşünaslığı zənginləşdirən bu nəzəriyyə və məktəblər eyni zamanda folklorun bütövlükdə ictimai-siyasi qayəsini, cəmiyyətdəki nüfuzedicilik funksiyalarını, sivilizasiyaya doğru inkişafın müxtəlif pillələrini və tərəqqi istiqamətlərini öyrənməyə imkan verdi. Bununla belə, etiraf etmək gərəkdir ki, C.Freyzerin yazdığı kimi «Amerikanın kəşfi Avropada yeni humanizmin meydana gəlməsinə

səbəb oldu. Antik dəyərlərlə yanaşı, daha qədim, daha uzaq keçmişin xalqlarının və mədəniyyətlərinin öyrənilməsinə başlandı. İlkin ibtidai insanlar (Orta əsrlərdə və İntibah dövründə olduğu kimi) artıq Bibliyadakı Adəmlə yox, Amerikanın uzaq meşələrində yaşamağa başlayan insanlarla müqayisə edilməyə başladı».

Antik mədəniyyətlər dünya xalqlarının gözü qarşısında zəngin və əsrarəngiz, həm də inkişaf etmiş kamil estetik və etik dəyərlər formalaşdırmışdır. Bu dəyərlər sivilizasiyanın ən uca zirvəsi, insan bədii təxəyyülünün antik mədəniyyətlər çevrəsində yaratdığı bədii gözəlliklər idi. Amerika cəngəlliklərində yeni açıqlanmış bu «vəhşi» canlı – əsl ibtidai insana məxsus mədəni dəyərlər isə estetik düşüncənin ən dərin qatlarından süzülüb gələn, gen yaddaşı vasitəsilə qorunub saxlanan, sonrakı tarixi kəsimlərdə isə həmin qaynaqdan baş alıb gəlməklə, insanın tarixi təkamülündə özünü göstərən, üzə çıxan cahanşümul həqiqət idi. Bu isə dünya xalqlarının yaratdığı, dünyanın bütün xalqlarına bu və ya digər dərəcədə məxsus olan sivilizasiya tarixinin yeni baxışlara möhtac olmasından xəbər verirdi. C.Freyzerin yazdığı kimi, «...elmin diqqətini cəlb edən, ibtidai insanların həyat təcrübəsi və ideallarla bağlı adət-ənənələri tək-tək tanınan və fərqlənən xalqlara yox, bütövlükdə bəşəriyyətə məxsus idi. Bu isə bizə insanın uzun inkişaf yolunu ardıcıllıqla, tədrici, lakin şərəflə izləməyə imkan verir. Bunu araşdırmaq isə tədqiqatçıların bir neçə nəslinin yorulmaz axtarışlarını tələb edir».

XIX yüzilliklə sivilizasiyaya məxsus oxşarlıq və eyniliklər İtaliyada, İspaniyada, İngiltərədə, Almaniyada geniş ölçülərdə öyrənilməyə başladı. Bütöv, tam vahid halında olan süjet, motiv eləcə də obrazların psixologiyasında oxşarlıqlar təsdiqləndi. Onların bir çoxunun isə insan cəmiyyətinin sonrakı mərhələlərində müxtəlif əlaqə və təsirlərlə bağlı meydana çıxma nəzəriyyələri irəli sürüldü. Mifoloji məktəb oxşarlıqları qohumluq əlaqələri ilə bağlılıq qənaəti əsasında Hind-Avropa mədəniyyətlərinin qohumluğu nəzəriyyəsini irəli sürdü. Teodor Benfey oxşarlıqların mədəni-tarixi iqtibas əsasında yarandığını bildirdi. K.Kroon və A.Aarne oxşarlıqların səyyar əlaqələr yolu ilə transilə edildiyi qənaətini təsdiqlədi. E.Taylor və E.Lanq süjet oxşarlığında psixi dərketməyə üstünlük verdi.

Bütün bu nəzəri baxışlar, yuxarıda qeyd edildiyi kimi, bütövlükdə dünya folklorundakı (mədəniyyətindəki) oxşarlıqlara heç də tam aydınlıq gətirmədi. Onlara yeni nəzəri yanaşma baxışları davam etdi. Hər bir nəzəriyyənin tərəfdarları, ardıcılları, davamçıları yarandı. Folklor mətnlərinin toplanılıb nəşri genişləndikcə bu nümunələrə müxtəlif fərqli baxışlar üzə çıxdı. Dünya xalqlarının daha geniş çevrəsinə məxsus folklor yaradıcılığı miqyaslı araşdırmalara cəlb edildi. Amma təəssüf ki, məlum nəzəri məktəb baxışları kontekstində türk xalqlarının, o cümlədən Azərbaycan xalqının folkloru, yaxud həmən etnik kökə malik digər türk xalqlarının folklorundakı oxşarlıqlar nə qlobal araşdırmalarda, nə də regional tədqiqatlarda öz nəzəri şərhini tapdı. Halbuki sivilizasiyanın vahidləşməsində, bütövləşməsində özünəməxsus payı olan türk xalqla-

rının folklorundakı oxşarlıqların həcmi və amplitudası daha əhatəlidir. Onun tədqiqi kontekstində isə qlobal düşüncənin daha yeni keyfiyyət göstəricilərini üzə çıxarmaq imkanı intəhasızdır.

Zəngin yaradıcılıq ənənələrinə malik türk xalqları dünya eposşünaslığına «Kitabi-Dədə Qorqud», «Alpamış», «Manas», «Maaday Qara», «Koroğlu» və s. kimi qüdrətli eposlar bəxş etmişdir. Adət-ənənə, mərasim - ritual eynilik və oxşarlıqları ilə bərabər, bu xalqların etnik ənənələrində, süjet və motivlərindəki oxşarlıq silsiləsinin mənşəyi isə daha ibtidai, ilkin insanın görüşləri ilə müqayisələrə imkanlar açır. Bu əlaqələr xalqların qismən sonrakı həyat hadisələri üçün səciyyəvidir. Çünki həmin oxşarlıqlar ibtidai insanın sonrakı inkişafının bədii yekunu idi. Bu ibtidai dəyərlər isə xalqların gen yaddaşından süzülüb gəlirdi, onların izləri ümumtürk folklorunda daha fəal qorunub saxlanmışdır. Türk xalqları folklorunun nəzəri tədqiqatlardan uzun tarixi zaman kəsimində kənar qalmasına baxmayaraq o, XXI yüzilliyin başlanğıcında yeni bir nəzəriyyənin yaranması üçün öz bakirə ağuşunu Azərbaycan folklorşünaslığının üzünə açdı. Dünya xalqlarının folklor dəyərlərini mənşə, gen birliyi baxımından öyrənilməsinə imkan verən bu yeni nəzəriyyənin açıqlanma imkanını reallaşdırdı.

Geneoloji nəzəriyyənin baş atributu gen yaddaşıdır. Gen yaddaşı xalqların vəhşilik dövründə sivilizasiyaya doğru inkişafının **birinci fazasında** formalaşmışdır. Bu mərhələ şüurlu fəaliyyətin başlanğıcı, ibtidai insanın dünyanı dərk etməsi ilə əlamətdar idi.Onun inkişafının **ikinci** fazası təbiət və təqvim görüşlərinin, ilkin inanc və etiqadların formalaşması, mədəniy- yətlərin erkən tipi olan yallı, rəqs və oyunların etnik yaddaşda əksi dövrü ilə bağlı olmuşdur.

**Üçüncü faza** – ibtidai insanın məişət həyatı mərasimlərinin, ritual görüşlərinin vahid sisteminin gen yaddaşında möhkəmlənmə mərhələsini əhatə edir. **Dördüncü faza** – ailə, əxlaq, davranış, qəhrəmanlıq, cəngavərlik, acizlik, qorxaqlıq və s. kimi dəyərlərin yaranıb etnik yaddaşa ötürülmə, yaddaş-gen, gen-yaddaş transilələri ilə bağlıdır.

Gen yaddaşı formalaşmasının sonuncu – **beşinci fazası** mədəni-estetik və etik dəyərlərin – xeyir və şər düşüncəsinin, sevgi, məhəbbət, nifrət, qəzəb, həsəd, həsrət və sairin etnik yaddaşda rasional çarpazlaşması ilə bağlıdır.

Bu beş fazada vəhşiliyin sonuncu keçid mərhələsində olan insanın şərti olaraq «gen» adlanan düşüncə cəbbəxanası yaranıb möhkəmlənmiş və özünün ilkin fəaliyyət funksiyalarını və əbədiyaşar funksiyalarını bərpa emişdir.

«Beş fazalı» düşüncə qatı//layı ibtidai insanın yaşadığı region, relyef və iqlim müxtəlifliyindən asılı olaraq fərqli şəkildə formalaşır və uzun çəkən bir dövrü əhatə edir. Elə xalqlar vardır ki, onların «gen cəbbəxanası»nın **ikinci** və **üçüncü** fazaları özünün aktiv fəaliyyət mövqeyini qoruyub saxlamışdır. Başqa qrup xalqların isə bəzən «gen cəbbəxanası»nın **birinci, dördüncü və beşinci** fazaları qeyri-aktivdir. Gen yaddaşı ikinci və üçüncü fazalarda tam vahidlərə bölünməzdir. Bu fazalarda etnik yaddaşa daxil süjetlər parçalanmır, «səyyar

transilə formasında» dünyanı dolaşır. Bütün xalqlar üçün eynilik və oxşarlıq modelində yayımlanır. Həm də onlar «gen cəbbəxanası»nın **beşinci** fazası üçün ənənəvi funksiyalara malikdir. Onların çevrəsi məhduddur – ögey ana, övladsızlıq, günahsız qızın böhtanlanması və s. Bu məzmunlu süjetlərdə dünya xalqlarının gen yaddaşı bölünməz və parçalanmazdır. Törəniş etibariylə «**beşinci** faza» formalaşma dövrünə daha uyğun gəlir. İbtidai insanın antropoloji durumunun formalaşdığı mərhələdə «gen yaddaşı» - **birinci** fazada formalaşan süjetlər sistemi kimi diqqəti cəlb edir.

Gen yaddaşının **birinci, üçüncü** fazalarının müvazi fəaliyyətində çoxsahəli parçalanmalar özünü göstərir. Daha doğrusu, eyni etnik mənşəyə məxsus xalqların folklorundakı oxşarlıqları daha tam əhatə edir. Demək, süjet oxşarlıqlarının gen, mənşə yaddaşı ilə bağlılığı həm daha qədim kökə malik xalqların, həm də eyni etnik kökdən qopub ayrılan xalqların mədəniyyətindəki oxşarlıqları əhatə edir. Onun parçalanma və yenidən birləşib həmcins törəmə, bütövləşmə, tam vahidə çevrilmə xüsusiyyətlərinə malik olduğunu nümayiş etdirir.

Mənşə birliyi və gen ümumiliyi dünya xalqlarının folklor mədəniyyətində müOxtəlif istiqamətlərdə özünü göstərir. Onları aşağıdakı kimi qruplaşdırmaq mümkündür: **Tarixi-genetik, etno-genetik, etno-psixoloji, etno-kulturoloji, etno-poetik.**

Gen yaddaşının müxtəlif xalqların folklorundakı əksi formaları çeşidli və çoxcəhətlidir. O, aşağıdakı forma və şəkillərdə özünü büruzə verir. İlk öncə nəzəri cəlb edən **üslub eyniliyidir.** Milli mədəniyyətlərin inkişaf səviyyəsindən asılı olmayaraq dünya xalqları folklorunu oxşar ölçülərdə, üslub və şəkillərdə yaratmışlar – lirik, dramatik və epik üslub dünya xalqlarının şifahi yaradıcılığı üçün oxşarlıqlarla zəngin bədii modellərin formalaşdığı ilk möhtəşəm yaradıcılıq qaynağıdır. Eyni zamanda bu yaradıcılıq bütövlükdə fövqəlbəşər səciyyəlidir. Bu qaynağın fövqəlbəşər mahiyyəti vaxtilə alman antropoloqu Yakob Qrimmin diqqətini cəlb etmişdir. O, «O drevnenemetskom meysteranqe («Uberden aldentşehen Meistersanq», Berlin, 1811) əsərinə yazdığı ön sözdə Arnimə cavab olaraq bildirir ki, qədim alman eposu fövqəlbəşər mənşəlidir». O, daha sonra yazırdı ki, qədim poeziya nümunələrindəki alliterasiya və qafiyə hər ehtimala görə eyni mənşəlidir (bax: «Ob otnoşeniəx mejdu bratğəmi Qrimm i Arnimom – R.Steiq Achim van Arnim und İ., und W.Grimm. Stuttqart, 1904). Doğrudur, Qrimm qardaşları süjet oxşarlıqların bəhs edərkən oxşarlığın gen mənşəyinə toxunmasa da poeziyanın, onun ayrı-ayrı şəkil və qəliblərinin yaranmasında fövqəlbəşər təsirlər və amillər axtarırdı ki, bu da əslində həmin xalqların gen yaddaşını şərtləndirən, onun fövqəlbəşər səciyyəsini müəyyənləşdirən amillərdən idi.

Oxşarlıqların **ikinci** mühüm nəzəri cəlb edən xüsusiyyəti ayrı-ayrı poetik şəkillərdəki qafiyə, ritm, alliterasiya, səs və söz kompleksləri ilə bağlı oxşarlıqlardır ki, bu da öz kökü etibarı ilə gen mənşəyindən süzülüb gələn fövqəlbəşər yaradıcılıq ənənələri ilə bağlıdır. Diqqət yetirilsə dünya xalqlarının folklorunda,

xüsusilə alman nəzəriyyəçisi Y.Qrimmin ilahi yaradıcılıq ənənəsinin məhsulu hesab etdiyi eposlarda özünü daha fəal büruzə verir. Bu xüsusiyyət Azərbaycan türklərinin aşıq şeiri üçün də ənənəvi modellər yaradır.

Gen mənşəyi ümumiliyinin **üçüncü** nəzərə çarpan xüsusiyyəti isə onun repertuar həyatı və ifa tərzi ilə bağlıdır. Dünya xalqları folklorunun ifa tərzi və repertuarı – meydan tamaşalarından tutmuş dastan yaradıcılığına qədər silsilə oxşarlıqlarla əlamətdardır. Sözlə hərəkətin vəhdəti(tamaşa mədəniyyətində), mərasim-ritual bənzərliyi (mərasim folklorunda), epik təhkiyə rəngarəngliyi (xalq nəsrində) folklor yaradıcılığında başlıca yaradıcılıq modelləridir. Bütün bunlar isə folklorun xalqların gen yaddaşı cəbbəxanasında toplanan, sonradan isə şifahi ənənələrində özünü göstərən görüntülərdir.Gen yaddaşının qorunub saxlanılmasında xalqların etnopsixoloji və psixoloji dərk etməsi mühüm nüfuzedicilik funksiyaları ilə əlamətdardır. Bu funksiyalar genin dünyəvi və regional zəmində fasiləsiz və fasiləli dövriyyəsini təmin edir.

Dünya xalqları üçün ənənəvi olan fasiləsiz gen yaddaşı daimi olaraq nəsildən-nəsilə transilə edilir, yeddi qərinədən bir təzələnir yaddaşda, bütövlükdə gen pozulmazlığını böyük sürəilə hərəkətə gətirir. Regional gen formaları, pozulmalar və tənzimlənmələrlə daha çox seçilir. Neqotiv əxlaq hopmaları - xəstəliklər və sairə asanlıqla ona sirayət edir, amma onların hər biri yeddi qərinə müddətində nəslin, şəcərənin genində davamlı olur, sonra isə təmizlələnib yoxa çıxır.

Dünya xalqlarının folklorundakı oxşarlıq və eynilikləri öyrənən yeni nəzəriyyə ümumilikdə oxşar mədəniyyətlərin tarixini və spesifikasını öyrənməkdə ən müasir və əlverişli nəzəri yanaşmadır. Azərbaycan folklorunun bu istiqamətdə öyrənilməsi isə onun qlobal mədəniyyətlər içərisindəki yerini müəyyənləşdirməyə geniş perspektiv imkanlar açır.

**А.М.Набиев**

**Новый взгляд на схожие культуры**

**РЕЗЮМЕ**

В статье выдвигается новая теоретическая мысль в изучении схожих сюжетов. Обосновывается идея схожести сюжетов в связи с генеалогическим единством народов. Освещается история учений о генеалогии, а схожесть культур утверждается на основе новых практических материалов. Здесь также раскрываются главнейшие принципы, особенности зарождения и распространения генеалогической теории.

**A.M.Nabiyev**

**The new view on the like cultures**

**SUMMARY**

In the article tells about new view on the like cultures. There based the idea about the like cultures with the genealogical once of peoples. Tells about the history of studies about genealogy and the like cultures likes says on the new practical materials. Also there shows main principes of born and popularization of the genealogical theory.